
“Kənd təsərrüfatı üzrə idxal edilmiş mallara görə ƏDV-nin əvəzləşdirilməsi üçün məlumat forması” elektron xidmətinin

İstifadəçi təlimatı


“Kənd təsərrüfatı üzrə idxal edilmiş mallara görə ƏDV-nin əvəzləşdirilməsi üçün məlumat forması”nın təqdim edilməsi üçün Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsinə (https://new.e-taxes.gov.az/etaxes/) giriş edib, aşağıda qeyd olunan identifikasiya və yoxlama vasitələrindən istifadə etməklə elektron kabinetə daxil olmaq lazımdır:

- Asan İmza;
- SİMA Token;
- SİMA imza.


Növbəti mərhələdə açılan yeni pəncərədə **“Ərizələr”** modulu seçilir.




Sonra “Kənd təsərrüfatı üzrə idxal edilmiş mallara görə ƏDV-nin əvəzləşdirilməsi üçün məlumat forması” elektron xidməti üzrə müraciəti təqdim etmək üçün “Yeni ərizə” xanasına məlumat formasının adı daxil edilir. Axtarış nəticəsində ekranda göstərilən müvafiq məlumat forması seçilir və yaxud “Hamısına bax” düyməsi vasitəsilə açılan pəncərədən də müvafiq məlumat forması seçilə bilər.




Əgər məlumat forması daha əvvəl doldurularaq qaralama kimi saxlanılıbsa, açılan pəncərədə həmin qaralama məlumat formaları göstərilir və onlardan birini seçmək imkanı yaradılır. Əvvəllər qaralama kimi saxlanılmış məlumat forması üzrə davam etmək istədikdə, müvafiq məlumat forması seçilərək aktivləşən "Davam et" düyməsi sıxılır. Bu zaman yeni pəncərədə əvvəl doldurulmuş məlumat forması açılır və ona düzəliş etmək mümkün olur.




Yeni məlumat forması yaratmaq istənildikdə isə, **"Yeni məlumat forması yarat"** düyməsi sıxılır.




Açılmış məlumat formasında “Siyahıya qayıt” düyməsi sıxıldıqda açılan pəncərədə “İmtina” düyməsi seçilməklə məlumat formasının doldurulmasına qaldığı yerdən davam etmək, “Əsas səhifəyə qayıt” seçilməklə “Ərizələr” moduluna qayıtmaq, “Bəli, yadda saxlanılsın” düyməsi seçilməklə isə yaradılmış məlumat formasını yadda saxlamaq mümkündür.






“Ümumi müddəalar” bölməsi


Məlumat formasında “Vergi orqanı”, “Vergi ödəyicisi” və “Rəhbər” barədə məlumatlar avtomatik əks etdirilir.




Sonra *"İdxal ediləcək kənd təsərrüfatı məhsullarına görə ödəniləcək ƏDV-ni əvəzləşdirmək və həmin məhsulların təqdim edilməsi zamanı ƏDV-ni əməliyyatın tam dəyərində hesablamaq hüququndan istifadə edirəm"* çekboksu seçilir.




Daha sonra məlumat formasının göndərilməsi üçün aktivləşən "İmzala və göndər" düyməsi, qaralamada saxlanılması və daha sonra göndərilməsi üçün "Qaralamada saxla və çıx" düyməsi sıxılır.




"İmzala və göndər" düyməsi sıxıldıqdan sonra müvafiq məlumat forması imzalanaraq göndərilə və ya bu əməliyyatdan imtina edilə bilər.




"İmzala və göndər" düyməsi sıxıldıqda açılan pəncərədə "İmtina" düyməsi sıxıldıqda yenidən əvvəlki pəncərəyə (məlumat formasının doldurulması pəncərəsinə) geri qayıdılır.



“İmtina” düyməsini sıxdıqdan sonra ekranda əks olunana “Sil” düyməsini sıxmaqla məlumat forması silinə və ya əksinə bu əməliyyatdan imtina edilə bilər.






Məlumat forması imzalanaraq göndərildikdən sonra yeni pəncərədə istifadəçi tərəfindən doldurulmuş məlumatlara uyğun məlumat forması və müvafiq məlumat formasının göndərilməsi barədə “Bildiriş” əks olunur. Həmin pəncərədə **“Çap”** düyməsi vasitəsi ilə məlumat forması çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər. **“Bağla”** düyməsi isə pəncərəni bağlamaq üçün nəzərdə tutulmuşdur.



İstifadəçi tərəfindən göndərilən “Kənd təsərrüfatı üzrə idxal edilmiş mallara görə ƏDV-nin əvəzləşdirilməsi üçün məlumat forması” “Göndərilənlər” qovluğunda əks olunur və bu hissədə müraciətin statusu barədə məlumat qeyd olunur.



Eyni zamanda bu hissədən də istifadəçi tərəfindən **"Çap"** düyməsi vasitəsi ilə məlumat forması çap edilə, **"Endir"** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər.

